Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 103 (1471) 3 iyun - 5 iyun 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ




# Məmməd Arazlı xatirələrim

(əvvəli ötən sayımızda)

Şair:

**Ey daşlaşan, torpaqlaşan**
**ulu babam,**
**Bu günümdən dünənimə uzaqlaşan**
**ulu babam,**
**Küləkləşən, dumanlaşan ruhunla sən**
**Ayağa dur, səninləyəm!**
**Səs getməyən, əl yetməyən**
**Qədim tarix dərsindən**
**Səs ver mənim səsimə sən:**
**Sənə gələn, səndən ötən nəydi belə? -**
**Səndən ötüb qardaşına dəydi belə?!**

Bu poetik müraciət şeirin bir növ fabulasıdır. Heç də həmişə şairdə belə alınmır, ona görə ki, içindən yaşamır, içərisi sızıldamır, ürəyi sancmır. Şair üzünü, bəli, XXI əsrə tutur, baxmayaraq qarşıdakı əsrə 35-40 il qalıb, əsl şair üçün illərin keçmişinin, indisinin fəlsəfəsində gələcək görünür. Məmməd Arazın bu şeir - təkcə bundan danışıram - qabağı, irəlini daha intellektual və emosional görür, oraya sıçrayır, müəllifin özünü - şəxsiyyətini tanıdır, cəmiyyətdə yerini göstərir, harada, hansı kresloda oturduğunu anladır. Amma ünvansız müqayisə aparmalı olsaq, şair hansı poeziya nərdivanını müəyyənləşdirməyə borcludur. Bu prosesdə şeirin nə günahı ki, şair tələsik başqa bir şeirin yerini tutmuşdur. O şairə qızğın əl çalmışdılar, yerini itirmişdi: Məmməd Araz yerini dəqiqləşdirmişdi, halbuki o, şəxsiyyətini, istedadını Vətənin başına gətirilmişi min bir oyunlarda axtarmış, heyfsilənmiş, kədərlənmişdir: Nəydi belə:

**Bununlamı neçə dəfə**
**Ata-oğul, qardaş hissi haçalandı,**
**Bir şəhərin**
**Beş qardaşın xanlığına parçalandı?!**
**O zamanmı bitdi bizim dilimizin**
**"sənin", "mənim" qabarı da?**
**O zamanmı bitdi bizim**
**dilimizin**
**"haralısan" damarı da?**

Məmməd Araz min illərdən yol gələn, genimizə qanımızdan keçən "haralısan?" sualına cəsarətlə cavab verdi. Həqiqətdir, şair nədən necə yazdığını anlamalıdır, əsəri qələmə alanda ortaya necəsini qoyacağına əmin olmalıdır. Onun yaddaşında bir ifadə qalmalıdır: möhtəşəm poeziya mövcuddur, bünövrəsini Şərq epoxasının poeziyası qoymuşdur. Həmişəmi şairdə belə alınır? Yox! Məmməd Araz qüdrətinə yiyələnməlisən ki, eyni zamanda XXI əsrin zövqlü, ibrət götürməyə qabil, tələbkar insanlarına inanasan...

Şair daxili sualları gizlətmirsə əsəbiləşir, barmaqlarını düyünləyir (həmin zalı, tribunanı xatırladım), rəmzləşən qəhrəmanlarımızın yaxasından yapışır və qəhrələnmiş səsilə soruşur:

**Səninləyəm, ulu babam!**
**Bu məsəli kimdi yazan?**
**Hansı soysuz ata idi**
**Ataların imzasını**
**Çəkib, ona möhür basan?!**
**Adınızı dastanlardan oğrayaram,**
**Ruhunuzu qıyma-qıyma doğrayaram,**
**Qara Çoban,**
**Dəli Domrul,**
**Ey Xan Eyvaz,**
**Giziroğlu Mustafa bəy**
**Əgər ki, siz**
**Bu məsələ qol çəkdiniz!**

Bu şeiri unudulmaz şairimiz Bəxtiyar Vahabzadəyə həsr etməsi də təbiidir: "Gülüstan" məşhur müqaviləsinin əsl mahiyyətini poeziyamızda ilk dəfə B.Vahabzadə eyni adlı poeması ilə açmağı bacarmışdı!"



Məmməd Araz 1968-ci ildə dəyərli şeirini yazdı, özü də poetik ehtirasla, azəri-türk "qardaşlarının" şəxsi-hakimiyyət mənafeyi uğrunda bir xalqın - bir dövlətin ikiyə bölünməsi faciəsinin baş qəhrəmanları olması həqiqətinin ağ və qara sifətinin şeirə qonaq gəlməsi.

**Məndən ötdü!..**
**Məndən ötdü!..**
**Sevincə bax, qeyrətə bax!**
**Bunu yazan xilqətə bax!**
**Məndən ötdü!**
**Qulağımdan getmir bu səs,**
**Zərbələri qardaşına,**
**Sirdaşına ötürən kəs**
**Elə bil ki, bax bu gecə**
**Qulağımın dibindəcə**
**Xətainin süqutuna**
**qəh-qəh çəkdi...**

Nə idi bu? Düşünmüşdümü beş qardaş nəyə rəvac vermişlər, "Azərbaycan torpağında Araz boyda şırım açdıqları"nın tarixi və mənəvi fəlakəti başlandı.

Azca haşiyə çıxım ki - şeirdən aldığım təəssüratı nəzərdə tuturam - poeziyanın tamlığını o vaxt dərk edirik, əsərlə birbaşa ünsiyyətə giririk, gözlənilməz məqamlarla, sətiraltı nüanslarla qarşılaşırıq. O zaman bir incə mətləbi də duyuruq: şair həmin mövzunu yazmağa başlarkən ona əvvəlcədən heç nə bəlli olmur, əks təqdirdə necə? Cənub mövzusu, tariximizə böyük ləkə gətirmiş Gülüstan müqaviləsi Məmməd Arazı hisslərilə üzbəüz qoymaya bilməzdi, təkbətək buraxıb uzaqlaşmazdı və ümidə də qoymazdı: ya mövzu, ya da ilham. Şairin xoşbəxtliyi, ilahi bəxşişi onda meydana çıxdı, daha dözmək olmur:

**...Sən olmadın, Azərbaycan!**
**Səni səndə ələdilər**
**Səni səndə üyütdülər.**
**Dibək oldun öz duzunla,**
**öz daşınla.**
**Ögey oldun, doğma ekiz qardaşına.**

Şair sözünü dedikcə yorulmur, qəzəblənir, lakin özünə xas təmkinlik, müdriklik bir milləti bir anda ayağa qaldırmaq möcüzəsinə inandırır. Oxucuların yaddaşında təzələyəcəyim aşağıdakı misralar himn-simfoniya kimi səslənir. Bəli, mən əlli ilə yaxındır tarixi aforizm siqlətində qiymətləndirmək ümidindəyəm.

**Dəfn etdiyim məsələnin**
**Başdaşına**
**Bir təəssüf xatirəsi yazıb, yondur:**
**Səndən ötən mənə dəydi,**
**Məndən ötən sənə dəydi.**
**Səndən, məndən ötən zərbə**
**Vətən, vətən, sənə dəydi...**

Tarixi hadisənin poetik nəqarəti! Məmməd Arazda üstündən qırmızı xətt çəkilən bir misra da yoxdur, fikrimi əsaslandırmaq üçün sitat gətirməyə ehtiyac duymuram.

Mən yuxarıda "genetik kod" sözünü işlətdim. Şairin ikiyə bölünmüş məmləkətinin canlı şahidi Arazdır. "Mən Araz şairiyəm", "Araz üstə çinar gördüm", "Araz yadıma düşüb", "Arazın işıqları" şeirlərində bir həsrət, nisgil, ayrılıq həqiqəti təsvir olunmuşdur. Bəlkə də İlahinin diktəsidir ki, şair özünə "Araz" təxəllüsünü götürmüşdür, israrla "Mən Araz şairiyəm" - demişdir.

**Mən - ondan su içmişəm,**
**Anamdan süd əməntək.**
**Sudan çıxan balıq tək**
**Ölərəm mən Arazsız.**
**O Mənim mürəkkəbim,**
**Mən onun qələmiyəm.**
**O mənim telli sazım,**
**Mən onun dilqəmiyəm...**

Məmməd Arazın Zaman anlayışına müqabil yaradıcılığını seçmədən hansı şeirini oxusan ilahi Məkandan qopduğunu kəsdirirsən. "Ana yurdum, hər daşına üz qoyum", "Vəsiyyət", "Yazı masam", "Salamat qal", "Səni axtarıram", "Ağarma, saçım, ağarma", "Özümdən şikayət məktubu", "Bacım Gülsümə məktub" və daha bir şeir; tələsməyək, şair sevənlər!

**Adını çəkdiyim belə fikiryüklü şeirləri hansı poetik xüsusiyyətlər yaşadır. Sadalanan nümunələrin tematikasını müəyyənləşdirmək çətinlik yaratmaz, çünki şair poeziyanın gücünə bələddir, şeirsə insan ruhundan, bu ruha dayaq tutan hisslərin vəcdindən, coşğunluğundan yaranan səsdir, sonra maddiləşir.**

(ardı gələn sayımızda)

**Allahverdi Eminov**